*Adımız məfkurəmizdir*

**28 iyul – 3 avqust 2020-ci il**

# Türküstan

www.turkustan.info

# Moskvada dəfn edilən Tamella Rüstəmova haqda bilmədiklərimiz - Aktrisanın qızı, kürəkəni, nəvəsi və 2-ci həyat yoldaşı...

**İyul ayının 22-də 84 yaşında Moskvada vəfat edən tanınmış azərbaycanlı aktrisa və pianoçu Tamilla Rüstəmova bu gün torpağa tapşırılıb. O, uzun müddət idi ki, ürək xəstəliyindən əziyyət şəkirdi.**

**Bu barədə Modern.az-a aktrisanın doğmaları mlumat veriblər. Tamilla Rüstəmovanın nəşi müsəlman qaydalarına uyğun olaraq Moskvadakı məscidə aparılıb, sonra dəfn mərasimi keçirilib.**

Qeyd edək ki, Tamilla Rüstəmova Azərbaycanın görkəmli bəstəkarı Səid Rüstəmovun böyük qızıdır. Onlar ailədə iki bacı, iki qardaş olublar. Rüstəmovlar ailəsinin 4 övladından yalnız kiçiyi - Rəna Rüstəmova hazırda sağdır.

***Bir neçə ekran əsərinə çəkilən Tamilla Rüstəmovanın ən yaddaqalan obrazları 'Böyük dayaq" filmində Maya və 'Ulduz" filmində Ulduz rollarıdır.***

***Modern.az-ın əməkdaşı Tamella Rüstəmovanın doğmaları ilə söhbətləşərkən uzun illərdir Azərbaycandan kənarda - Rusiyada yaşayan aktrisa ilə bağlı indiyə kimi bilmədiyimiz yeni məlumatlar da əldə edib.***

Tamella Rüstəmova 1936-cı ildə Bakıda dünyaya göz açıb. 1959-cu ildə Moskvadakı Qnesinlər adına Musiqi Akademiyasını fortepiano ixtisası üzrə bitirib. O, hələ həmin Akademiyada oxuduğu illərdə orada vokalçı ixtisası üzrə təhsil alan latış tələbə Olgerd Krastınşla tanış olur. Sonra onlar münasibətlərini rəsmiləşdirməyi qərara alırlar.

1959-cu ildə Akademiyanı bitirən gənclər ailə qururlar. Gənc ailə daimi yaşamaq üçün Riqa şəhərinə köçür. Aktrisa ərə gedəndən sonra Rüstəmova-Krastınş soyadını götürür. Riqada Tamilla xanım uzun müddət musiqi məktəbində fortopiano ixtisası üzrə müəllim işləyib.

***Onun əri Olgerd Krastınş isə opera ifaçısı olmaqla yanaşı, aktyor kimi də bir neçə filmdə çəkilib.***

***Tamella Rüstəmova 'Böyük dayaq" və 'Ulduz" filmlərinə yay fəslində Bakıya dincəlməyə gələrkən atasının məsləhətilə çəkilib.***

***Olgerd Krastınş ilə ailə quran azərbaycanlı aktrisanın bu evlilikdən Velta adlı bir qızı dünyaya gəlib.***







Tamella Rüstəmovanın Olgerd Krastınşla evliliyi uzun sürməyib. Təxminən 10 ildən sonra azərbaycanlı aktrisa latış ərindən boşanaraq, Bakıya - valideynlərinin yanına köçüb. Bakıda o, Bülbül adına musiqi məktəbində fortopiano müəllimi işləyib. 1971-ci ildə Tamella xanımın anası vəfat edib, 1983-cü ildə isə atası Səid Rüstəmov dünyasını dəyişib.

Bakıda yaşadığı illərdə Tamella xanım "Axırıncı aşırım" filmində də epizodik rola çəkilib. Maraqlıdır ki, Tamella Rüstəmova həmişə mətbuatdan qaçmağa çalışıb, radio, televiziya və qəzetlərə müsahibə verməkdən yayınıb. Bu səbəbdən də onun haqqında internet resurslarında da məlumat çox azdır.

***T.Rüstəmova Bakıda yaşadığı müddətdə qızı Velta böyüyərək orta məktəbi bitirib, ali məktəbdə təhsil alaraq rus dili ədəbiyyatı, mədəniyyəti, psixologiya və pedaqogikası ixtisasına yiyələnib. Bir müddət paytaxtda müəllim işləyən Velta İqor Tsvetkov adlı bakılı rusla ailə qurub.***

Tamilla Rüstəmovanın kürəkəni İqor Tsvetkov indiki Azərbaycan Neft və Sənaye Universitetini (keçmiş Neft və Kimya İnstitutu) bitirib, ixtisasca neftçidir. İqor Tsvetkov xeyli müddət Bakıda neft yataqlarında mühəndis işləyib.





1998-ci ildə aktrisa qızı və kürəkəni ilə daimi yaşamaq üçün Moskva şəhərinə köçüb.

Aktrisanın qızı Velta xanımın həyat yoldaşı İqor 2014-cü ilə qədər Rusiyada fəaliyyət göstərən AST Şirkətlər Qrupunda baş mühəndis işləyib. İndi isə informasiya-texnologiyaları üzrə mütəxəssis kimi çalışır.

Tamilla Rüstəmovanın nəvəsi İnara Tsvetkov 8-ci sinifə qədər Bakıda təhsil alıb. 1998-ci ildə ailəsinin Moskvaya köçməsi ilə əlaqədar İnara Tsvetkov orada humanitar gimnaziyaya daxil olub. Daha sonra Rusiya Maliyyə Nazirliyinin Vergi Akademiyasını bitirib. Hazırda özəl şirkətlərin birində direktor müavini vəzifəsində çalışır.

***Əməkdaşımız Tamilla Rüstəmova ilə bağlı məlumatları dəqiqləşdirərkən maraqlı bir informasiya da öyrənib. Məlum olub ki, Tamilla xanımın ikinci dəfə ərə gedib. Onun ikinci həyat yoldaşı azərbaycanlı İsrail Hənifəyev adlı şəxsdir. İsrail Hənifəyev vaxtilə Bakıda - Azərbaycan keçmiş Ticarət Nazirliyində şöbə müdiri vəzifəsində çalışıb.***









**Oxu, oxut, abunə ol!**